# Yeni məktəb binası istifadəyə verildi

Kiçik Pirəli kənd tam orta məktəbi uzun illər idi ki, yararsız, köhnə binada yerləşirdi. Nəhayət, kənddə 11 sinif otağı, 2 kompüter otağı, akt zalı, idman zalı, bufet, kimya və fizika laboratoriyalarından ibarət yaraşıqlı məktəb binası tikildi.





Sentyabrın 16-da 180 şagird yerlik məktəb binasının təntənəli açılış mərasimi oldu. Mərasimdə MM-in üzvü, respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov, rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev, YAP Qəbələ Rayon Təşkilatının sədri Abil Ağasəfov, həmyerlimiz professor Elman Məmmədov, rayon təhsil şöbəsinin rəhbər işçiləri, kənd ictimaiyyətinin nümayəndələri, valideynlər iştirak edirdilər.

Mərasimi rayon təhsil şöbəsinin müdiri Oqtay Hacıyev açıq elan etdi və qonaqları, bütün mərasim iştirakçılarını salamladı. Mərasimdə məktəbin müəllimi Tünzalə Surxayeva, valideyn Sənayə Məsimova, IX sinif şagirdi Ayişə İsmayılova çıxış edərək belə bir gözəl məktəb binasının şagirdlər üçün ən böyük hədiyyə olduğunu söyləyərək, ölkə rəhbərliyinə, tikintidə zəhməti olan bütün təşkilatlara minnətdarlıqlarını bildirdilər.

Mərasimdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev Kiçik Pirəli kənd tam orta məktəbinin açılışında iştirak edən bütün qonaqları, kənd müəllimlərini, valideynləri, şagirdləri rayon icra hakimiyyəti adından salamladı, onlara xoş arzularını bildirdi, məktəbin tikintisində fəallıq gösərən bütün təşkilatları alqışladı.

Həmyerlimiz professor Elman Məmmədov yeni məktəb binasının tikintisi münasibətilə kənd əhalisini, müəllim və şagirdləri təbrik etdi,yeni dərs ilində onlara yeni-yeni uğurlar arzuladı.

MM-in üzvü, Respublika Ağsaqqallar Şurasının sədri, Fəttah Heydərov öz çıxışında vaxtilə ulu öndərimiz Heydər Əliyevin və hazırda onun davamçısı olan ölkə Prezidenti cənab İlham Əliyevin Azərbaycanda təhsilin inkişafına böyük diqqət verdiklərini tədbir iştirakçılarının nəzərinə çatdırdı. O, qeyd etdi ki, son illərdə Azərbaycanda yüzlərlə yeni məktəb binası tikilmiş, əsaslı təmir edilmişdir, Qəbələ rayonunda da, istər təhsil, istərsə də digər sahələrdə çox böyük uğurlar əldə olunmuşdur. Natiq daha sonra qeyd etdi ki, təhsilin keyfiyyətini yüksəltmək məqsədilə ölkə rəhbərliyi daim müəllimlərin sosial qayğısına diqqət yetirir. Bir qədər bundan əvvəl cənab Prezidentin sərəncamı ilə onların əməkhaqqı 10 faiz artırılmışdır.

El ağsaqqalı çıxışının sonunda bütün rayon müəllimlərini, kənd sakinlərini Bilik Günündə yeni məktəbin isifadəyə verilməsi münasibətilə təbrik etdi, yeni tədris ilində onlara uğurlar arzuladı. Sonra birincilərə hədiyyə olaraq məktəbli çantası paylandı.

Şagirdləri yeni məktəbin siniflərinə səsləyən ilk zəng çalındı. Qonaqlar məktəbin sinif otaqlarına, fənn kabinetlərinə, laboratoriyalarına, idman və iclas salonlarına, baxış keçirdilər və bir daha müəllim kollektivinə yeni məktəbdə daha yüksək uğurlar arzuladılar.

Sonda qonaqlar məktəbin müəllimi Elçin İslamzadənin XI sinifdə vətənpərvərlik mövzusunda keçdiyi ilk dərsdə iştirak etdilər. Dərsdə ulu öndər Heydər Əliyevin Azərbaycanın ən böyük vətənpərvər oğlu olması şagirdlərin diqqətinə çatdırılmışdır.

**Oqtay MƏMMƏDOV.**
**Fotolar S. Umuyevindir.**

### *QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2013-cü İLİN OKTYABR AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ QƏBULLARIN VƏ GÖRÜŞLƏRİN QRAFİKİ*

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər, qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Tövlə kəndi | 01.10.2013 | Kənd məktəbi, saat $11^{00}$ |
| Ovculu kəndi | 08.10.2013 | İcra nümayəndəliyi, saat $11^{00}$ |
| Laza kəndi | 15.10.2013 | Kənd məktəbi, saat $11^{00}$ |
| Qaradeyn kəndi | 22.10.2013 | Kənd məktəbi, saat $11^{00}$ |
| Siləyli kəndi | 29.10.2013 | İcra nümayəndəliyi, saat $11^{00}$ |

**Qəbula dəvət olunurlar:** təhsil, səhiyyə, mədəniyyət və turizm şöbələrinin, hüquq-mühafizə orqanlarının, əhalinin sosial müdafiəsi, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol istismar, baytarlıq, qaz istismar, torpaq və xəritəçəkmə, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri.

# Vətəndaşların seçki hüququ, bu hüququn müdafiəsi və seçki qanunvericiliyinin pozulmasına görə məsuliyyət

Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Xalqın iradəsinin bilavasitə və ən yüksək ifadəsi dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarına azad və demokratik seçkilərdə bildirməsidir.

Seçkilərin keçirilməsi cəmiyyətin ictimai həyatında və dövlət işlərində vətəndaşların iştirakına şərait yaradan ən kütləvi tədbirlərdəndir. Azərbaycanda keçirilən hər seçki müstəqil dövlətimizin seçki təcrübəsində mühüm demokratik irəliləyişlərlə səciyyəvidir. 1993-cü ilin iyun ayından etibarən ölkəmizdə keçirilən seçkilər Azərbaycan respublikasında seçki praktikasının təkmilləşdirilməsi baxımından böyük uğurla yadda qalmış, bu sahədə qazandığımız nailiyyətlər sıx əməkdaşlıq münasibətlərini getdikcə inkişaf etdirdiyimiz aparıcı dövlətlərdə, dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarında da böyük rəğbətlə qarşılanmışdır. Xüsusən də son illərdə keçirilmiş seçki və referendumlara dair beynəlxalq təşkilatların verdikləri müsbət rəylər, Azərbaycanda vətəndaşların siyasi şüurunun və seçki mədəniyyətinin tam yüksəldiyini təsdiqləyir.

Azərbaycan iqtidarının siyasi iradəsi ilə 1997-ci ildən müasir standartlara cavab verən seçki qanunvericiliyinin formalaşdırılması məqsədilə, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu (DYİHB) ilə qurulmuş fəal işbirliyinin nəticələri müsbət nöqteyi-nəzərdən diqqəti xüsusilə çəkir. Azərbaycan 2001-ci ilin yanvarında Avropa Şurasına (AŞ) tamhüquqlu üzv qəbul edildikdən sonra bu sahədə ölkəmizin əməkdaşlıq hüdudları daha da genişlənmişdir. Seçki qanunvericiliyinin təkmilləşdirilməsi işində Avropa Şurası Venesiya Komissiyası fəallıq göstərmişdir.

1998-ci ilin 18 iyununda ümummilli lider Heydər Əliyevin "İnsan hüquqlarının müdafiəsi sahəsində dövlət proqramı" haqqında imzaladığı sərancamın icrası ilə əlaqədar ölkədə bir sıra qanunvericilik islahatları həyata keçirilmiş, yeni məhkəmə sistemi, konstitusiyanın müddəalarına əməl olunmasına nəzarəti, insan hüquqları üzrə müvəkkil kimi yeni təsisatlar yaradılmışdır.

Azərbaycan demokratik, dünyavi, hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyəti yolu ilə inamla irəliləməkdədir. Dövlət və vətəndaş cəmiyyəti arasında əlaqələrin daha da inkişaf etdirilməsi, insan hüquqlarının müdafiəsi sahəsində görülən tədbirlərin genişləndirilməsi zərurəti, respublikamızda "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" sərəncamın imzalanması ilə nəticələndi.

Azərbaycan Respublikasının Konstitutsiyasına əsasən xalqın öz suveren hüquqlarını bilavasitə ümumxalq səsverməsi—referendum yolu ilə ümumi, bərabər və birbaşa seçici hüququ əsasında tənzimlənmişdir.

Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ vardır.

Seçki hüququ hər bir vətəndaşın ayrılmaz, toxunulmaz və pozulmaz hüququdur. Bu hüquqdan istifadə isə hər bir vətəndaşın azad iradəsinin ifadəsidir. Bunu həyata keçirtməklə hər bir insan öz vətəndaşlıq mövqeyini təsdiqləmiş olur.

Seçicilərin seçki hüququ əmələ gəldiyi vaxtdan, həm seçiciləri, həm də bu seçki hüququnu təmin edən şəxslərin müəyyən vəzifələri yaranır. Hərəkət və ya hərəkətsizliklə əlaqədar bu vəzifələrə əməl olunmaması, Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq, həmin şəxslər mülki, intizam, inzibati və cinayət məsuliyyətinə cəlb oluna bilərlər. Belə ki, seçki qanunvericiliyin pozulması ilə əlaqədar Azərbaycan Respublikasının Cinayət Məcəlləsində cinayət məsuliyyəti nəzərdə tutun aşağıdakı normalar qəbul olunmuşdur:

—Seçki (referendumda iştirak) hüquqlarının həyata keçirilməsinə mane olma;

—Seçkilərdə (referendumda) iştirak qaydalarını pozma;

—Seçki (referendum) komissiyalarının işinə müdaxilə etmə və ya təsir göstərmə;

—Seçki (referendumda iştirak) sənədlərini saxtalaşdırma, yaxud səsvermənin gizliliyini pozma.

AR CM-in 159-cu maddəsinin tövsifedici əlamətləri istisna olmaqla, qeyd olunmuş digər maddələr böyük ictimai təhlükə törətməyən cinayətlər kateqoriyasına aiddir, yəni sanksiyalarında iki ilə qədər azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur. Bu cinayətlərin subyektləri həm seçici qismində iştirak edən şəxslər, həm də digər şəxslər ola bilər. Həmin cinayət tərkibi normalarında, üç ilədək azadlıqdan məhrum etmə, min manatadək miqdarda cərimə, üç yüz saatdan dörd yüz səksən saatadək ictimai işlər, iki ilədək müddətə islah işləri və əlavə cəza kimi üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilmə cəzaları nəzərdə tutulmuşdur.

**(Ardı 4-cü səhifədə).**